**Orxan USUBALİYEV**
*AMEA- nın M.Füzuli adına*
*Əlyazmalar İnstitutunun doktrantı*

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA MİLLİ KİTAB NƏŞRİ

***Açar sözlər:*** *milli kitab, sənəd, kitabçılıq işi, nəşr, çap, mətbəə*
***Ключевые слова:*** *начионалный книга, документы, книжное дело, издательство, полиграфия, типография*
***Keywords:*** *national book, document, bookselling activity, publishing, printing, printing works*

*Məqalə Azərbaycanda kitab nəşrinə həsr olunmuşdur.Burada həmçinin müasir dövrdə Azərbaycanda milli kitab nəşrinin probleminə dair məsələlər də öz ətraflı izahını tapmışdır.*

1990-cı illərin əvvəllərindən etibarən, ölkəmizdə baş verən sosial - siyasi və iqtisadi çətinliklər, problemlər bütövlükdə kitab nəşrinə, kitab ticarətinə, təbliğinə və yayılmasına mənfi təsir göstərmişdir. Ölkə miqyasında hər bir sahədə böhranlı vəziyyət yaranmışdır. Bu çətin illərdə kitab nəşri bütün sahələr, problemlər, mövzular və tiplər üzrə çox aşağı səviyyəyə (ad və tiraj etibarilə) düşmüşdür. Sosial cəmiyyətə bazar iqtisadiyyatının gəlməsi, qiymətlərin liberallaşması prosesinin başlanması, nəticədə azad ticarət dövlət siyasətindən başlamış bütün sahələri, o cümlədən kitab nəşri və ticarətini əhatə etdi, ümumiyyətlə, bir çox məsələlərə dövlət nəzarəti zəiflədi. Ləyaqət və mənəvi dəyərlər şüurlu şəkildə ucuzlaşdırılıb gözdən salındı, yüksək amallar, nəcib əməllər, təmiz duyğular, müqəddəs hisslər bazar iqtisadiyyatının dərin sularında qərq oldu. Əqli nailiyyətlər alverçilərin və dırnaqarası dövlət məmurların meyarları ilə qiymətləndirildi. Bununla da, kütlənin mədəni intellektual səviyyəsinin yüksəlişi üçün mövcud imkanlar demək olar ki, əldən getdi. Kitab nəşri, təbliği və yayılmasında nəticədə əhalinin mədəni, elmi, texniki, bədii inkişafında və informasiya təminatında böyük rol oynayan kitab mağazalarımız, xarici mallar satan dükanlar tərəfindən sıxışdırılmağa başlandı.

Ancaq müasir dövrün reallıqları kitab nəşrində, o cümlədən milli kitab nəşrinin hazırlanması, buraxılmasında şəraitlə əlaqədar yeni istiqamətləri, çətinlikləri, problemləri, mürəkkəblikləri meydana çıxarmışdır. Bu, hər şeydən əvvəl, dövrün inkişaf meyllərindən yaranmış və kitab nəşrində zəruri komponentlərin məzmun, müəllif, nəşriyyat, tərtibat məsələlərinin və s. hər birində özünəməxsus mürəkkəbliklər və problemlər meydana çıxmışdır. "Kitab nəşri üçün indiki şərait ilk növbədə novator təfəkkür və fəal vətəndaş mövqeyi irəli sürməklə bərabər, mövzu, kitabın tipologiyası, poliqrafik icrası,



bədii tərtibatı və s. sahələrdə isə ciddi yaradıcılıq axtarışları aparmağı tələb edir". [2, 123]

Nəzərə almaq lazımdır ki, ciddi yaradıcılıq axtarışlarında kitabın strukturunu təkmilləşdirmək, kitab tipologiyasının inkişaf xüsusiyyətlərini üzə çıxarmaq, nəşr prosesində vacib istiqamətləri nəzərə almaq, müəyyən etmək, nəşriyyat fəaliyyəti və kitab ticarəti ilə məşğul olan mütəxəssislərin hazırlanmasını təşkil etmək qarşıya çıxan problemlərdən idi. Məhz bu çətinliklər və problemlər sırasında müəllifin və əsərin seçilməsi də ən önəmli və mürəkkəb amildir. Sovet hakimiyyəti dönəmində əsərlər ciddi süzgəcdən keçirilir, oxunub müsbət rəy alındıqda, hətta gizli rəyə göndərilir və oradan da müsbət rəy alındıqda kitab nəşr olunmaq üçün qəbul edilirdi. Təəssüflər olsun ki, bu vacib ənənə də müasir dövrdə aradan qalxmışdır.

Müasir dövrdə naşirlər öz nəşriyyatçılıq fəaliyyətlərini davam etdirmək üçün pul xatirinə, istənilən kitabı çap edirlər. Belə olan tərzdə kitab nəşri mədəniyyətinə daha böyük zərbələr dəyir. Halbuki kitabçılıq işi ölkənin inkişafında strateji sahələrdən biri olduğuna görə kitab nəşrinə belə münasibət qətiyyən yolverilməzdir. İndiki şəraitdə kitab nəşrinə diqqət, qayğı daha çox olmalıdır. "Kitab xalqın mənəvi, mədəni sərvətidir. Kitab xalqın tarixi, mədəniyyəti, dilidir. Hər bir millətin elmi və mədəni səviyyəsini şərtləndirən amillərdən biri onun kitab mədəniyyətidir. Etiraf etmək lazımdır ki, ölkəmizdə nəşriyyatlara sərbəstliyin verilməsi, nəşriyyat və poliqrafiya müəssisələrinin özəlləşdirilməsi (29 mart 2001 - ci il) ilk mərhələdə kitab nəşri və ticarətindəki çətinlikləri, problemləri bir o qədər də dərinləşdirdi". [7, 98-112]

Araşdırmalar göstərir ki, 1997-2000- ci illər ərzində təkcə Bakı şəhərində 40-a qədər kitab mağazası qeyri - qanuni şəkildə özəlləşdirilib. "Göründüyü kimi, kitab mağazalarının özəlləşdirilməsi müvafiq fərmandan xeyli əvvəl həyata keçirilmişdir. Demək olar ki, bütün kitab mağazaları özəlləşdirildikdən dərhal sonra öz profilini dəyişdilər. Nəticədə kitablar, o cümlədən dərsliklərin böyük əksəriyyəti 1998 - 2000- ci illərdə (elə indinin özündə də) əsasən yarmarka və bazarlarda, küçə və meydanlarda, metro keçidlərində və dayanacaqlarda, heç bir təmizlik qaydalarına riayət edilmədən, açıq havada, tozun, torpağın içində satılır. Nəşriyyatların və kitab mağazalarının özəlləşdirilməsi vacib bir məsələnin həllini də çətinləşdirmiş, ümumiyyətlə ləğv etmişdir. Bu da nəşriyyatlarda yaradıcılıq "portfelləri" nin formalaşdırılması zamanı tematik işlərin (planların) aparılmasıdır. Yeni nəşrlər əsasən sponsorlar, ya da müəlliflərin öz maliyyə imkanları hesabına çap olunur"[3]. Nəticədə çoxlu sayda heç bir ədəbi - mədəni qiyməti olmayan, maraqsız kitablar işıq üzü görür. Bu da, cəmiyyətdə kitaba olan marağı və tələbatı aşağı səviyyəyə salır, oxucuların mütaliə imkanlarını məhdudlaşdırır.

Nəzərə almaq lazımdır ki, hər hansı bir dolğun kitabı nəşr etməklə bərabər, təbliğini də həyata keçirmək lazımdır. Ancaq indiki şəraitdə

ölkəmizdə televiziya, radio və mətbuatda kitab təbliği olduqca zəifdir. "Bir çox hallarda, ayrı - ayrı sahələr, mövzular və tiplər üzrə buraxılan ədəbiyyat oxucusuna vaxtında çatmır. Belə ki, oxucu istədiyi kitabın nəşr olunduğundan vaxtında xəbər tutmur". [1, 94]

Müasir dövrdə kitab nəşrinin çətinliklərindən, problemlərindən və mürəkkəbliklərindən söhbət edərkən əsərin nəşrə hazırlanması, tərtibatı sahəsində mövcud olan və getdikcə artan, dərinləşən məsələlərdən də danışmaq vacibdir. Xüsusilə milli kitabların nəşrə hazırlanması, redaktəsi və tərtibi prinsiplərinin spesifikliyi, mürəkkəbliyi və indiki naşirlərin bu məsələlərdən (kitab nəşrinin nəzəri və təcrübi problemlərindən) xəbərsiz olmaları, yeni və daha ağır, ziddiyyətli vəziyyətin yaranmasına səbəb olur.

Kitab - dünya mədəniyyətinin bilik xəzinəsidir. "Kitab mədəniyyətinin ən yüksək səviyyəsinin göstəricisi milli kitab nümunələrinin kütləvi şəkildə çapdan buraxılmasıdır. Milli kitabların xeyli hissəsi tələsik şəkildə hazırlandığından, biznes, ticarət, kommersiya məqsədi daşıdığından həm forma, həm də məzmun baxımından kitabçılıq işinin bir çox tələblərinə cavab vermir"[4, 82]. Belə ki, vahid nəzarət sisteminin, habelə dövlət standartlarının olmaması kitabçılıq işi sahəsində vəziyyəti daha da mürəkkəbləşdirir. Müasir dövrün reallıqları müxtəlif fəaliyyət sahələrində, o cümlədən kitab nəşrində və ticarətində dünya təcrübəsinə diqqət yetirilməsini və istifadə olunmasını tələb edir. İndiki şəraitdə dünya təcrübəsinə diqqət yetirmədən yaşamaq və işləmək çox çətindir, yaxud da heç mümkün deyil. Əgər işləmək, fəaliyyət göstərmək mümkün olursa da, onun nəticələri, məhdud nailiyyətləri çox aşağı səviyyədə olur və elmi ictimaiyyət, sahə mütəxəssisləri tərəfindən təqdirəlayiq hesab edilmir. Bu baxımdan, müasir istiqamətlər və mövcud reallıqlar nəzərə alınmalı, dünya təcrübəsinə əsaslanaraq fəaliyyət göstərmək təqdirəlayiqdir.

Müasir dövrdə ölkəmizdə nəşriyyat işinə dövlətin dəstəyi də az deyildir. Bu sahədə görülən işlər və həyata keçirilən tədbirlər planı dövlətimizin nəşriyyat işinə diqqətinin nəticəsidir. Hətta "Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları çıxışlarında dinamik inkişaf yoluna qədəm qoymuş Azərbaycan dövlətinin qlobal informasiya cəmiyyətinin qurulması ideyasını dəstəklədiyini və onun gerçəkləşdirilməsini dövlət siyasətinin əsas prioritetlərindən hesab etdiyini dəfələrlə qeyd etmişdir". [5]

Müasir dövrdə milli kitab nəşrinin avtomatlaşdırılması və mexanikləşdirilməsində əsas amil elektron nəşrlərin yaradılması və inkişaf etdirilməsidir. Elektron nəşr texnologiyalarının dünya miqyasında indiyə kimi inkişafını dörd mərhələyə bölmək olar: I mərhələ - 1980 - cı illərə qədər: nəşri nəzərdə tutulan materialların redaktə olunması üçün kompüterlərdən istifadə olunurdu; II mərhələ - 1990 - cı illərin ortalarına qədər: elektron nəşrlərin istehsalı kmpakt disklərin üzərində həyata keçirilirdi; III mərhələ - 1990 - cı illərin ortalarından 2000 - ci ilə qədər: elektron nəşrlər internet mühitində yaranmağa başladı; IV



mərhələ - 2000 - ci ildən hazırki günümüzədək: bütün nailiyyətlərin daha da inkişaf etdirilməsi və yeni istiqamətlərin axtarışının davam etdirilməsidir.

Müasir dövrün tələbləri milli kitab nümunələrinin hazırlanması, tərtibi və nəşri ilə mövcud olan çətinliklərin, problemlərin və mürəkkəbliklərin aradan qaldırılmasının optimallaşdırılması üçün konkret tədbirlərin həyata keçirilməsini zəruri edir. Əgər biz ölkə vətəndaşları milli dövlətçiliyimizi inkişaf etdirmək, müstəqil və azad yaşamaq istəyiriksə varlanmağı düşünməklə yanaşı, daha çox maariflənməliyik, mədəni və ziyalı şəxsiyyət kimi formalaşmalıyıq. Bundan ötrü, ilk növbədə bizlər kitab nəşrini, o cümlədən, milli kitab nəşrini dünya standartları səviyyəsində təşkil və inkişaf etdirməliyik. "Azərbaycan kitabının keçmişini, müasir vəziyyətini öyrənməklə inkişaf prespektivlərini müəyyənləşdirmək bazar iqtisadiyyatı şəraitində xüsusi əhəmiyyətə malikdir". [6, 181]

Müasir şəraitdə və mövcud prespektivdə milli kitab nəşrinin kütləvi təşkili problemi olduqca geniş və mürəkkəbdir. Çünki Azərbaycanda milli kitab nəşrinin düzgün və prespektivli təşkili bütövlükdə kitabçılıq işinin bir çox aktual problemlərinin də həll edilməsinə imkan yarada bilər. "Ölkəmizin müstəqil, azad olması gələcəyə inamla baxmaq və sürətlə inkişaf etmək üçün faktik və həm də gözəl imkanlar yaratmış, Azərbaycan xalqının qarşısında geniş prespektivlər açmışdır. Bu mövcud şəraitdən məqsədyönlü, planlı şəkildə istifadə edərək milli kitab nəşrinin təşkilini dövrün tələbləri və dünya standartları səviyyəsində təşkil etmək mümkündür"[8, 33]. Bu mürəkkəb və vacib problemin düzgün həlli aidiyyatı orqanların və sahə mütəxəssislərin, alimlərin, ümumiyyətlə sahə ilə nəşriyyatların koordinasiyasını zərurətə çevirir.

Müasir dövr millətin mənlik şüurunun, mənəviyyatının, irsinin, milli ideologiyasının ("Azərbaycançılıq məfkurəsi") inkişafına müstəsna tələbatın artdığı dövrdür. Belə ki, indiki şəraitdə milli kitab, bütövlükdə kitabçılıq işinin bütün aspektlərinin həyata keçirilməsini təxirə salınmadan həll edilməsini şərtləndirmək vacib məsələdir. Bu baxımdan, aktual sayılan problemin həlli üçün düşünülmüş tədbirlər sistemi tələb olunur. Mənim fikrimcə, dövrün mövcud reallıqlarına əsaslanan nəzəri müddəaların hazırlanması qarşıya qoyulacaq sistemli tədbirlərin həyata keçirilməsində ilkin addım olmalıdır.

## ƏDƏBİYYAT


1.Allahverdiyev B. V., Məmmədzadə R. A. Müasir mərhələdə kitab ticarətinin təşkili. - Bakı: Gənclik, 1996. - 225 s.

2.Umudlu İ. Kitab nəşri bu gün. - Bakı: Əbilov, Zeynalov və oğulları, 2004. - 321 s.

3.Allahverdiyev B. V. Kitab mağazalarının olmaması faciəvi vəziyyətin göstəricisidir. "Üç nöqtə", 2005, 23 dekabr.

4.Azərbaycan kitabı: biblioqrafiya: 3 cilddə, - səh 2. - I kitab. - Bakı: Yazıçı, 1982. - 744 s.

5. Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyinin tabeliyində olan bir sıra müəssisələrin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (29 mart, 2001), "Azərbaycan" qəz., 2001, 30 mart.
6. Allahverdiyev B. V. Kitab nəşri, problemlər, mülahizələr, təkliflər. - Bakı: "Dil və ədəbiyyat" Beynəlxalq elmi - nəzəri jurnal, 2006, № 3. səh 180 - 181.
7. Azərbaycanda nəşriyyat işi. - Bakı: Yeni Nəsil, 2000. - 156s.
8.Allahverdiyev B. V. "Milli kitab" anlayışı haqqında mülahizələr. Kitabşünaslıq və nəşriyyat işi: elmi - nəzəri və təcrübi jurnal. - Bakı, 2008. № 2. səh 31 - 34.

О. Усубалиев

## ИЗДАНИЕ НАЦИОНАЛНОЙ КНИГИ В АЗЕРБАЙДЖАНЕ НА СОВРОМЕННОМ ЭТАПЕ

### РЕЗЮМЕ

В статъе освещается способы решения некоторых важных проблемы националный книжное издателство. Здесъ также рассмотривается издание, распространение, оформление и чтение начионалный книга

O.Usubaliev

## THE PUBLİCATİON OF NATİONAL BOOKS İN AZERBAİJAN AT THE PRESENT STAGE

### SUMMARY

The ways of solution to some important problems of national book publishing are proposed in this article. The themes of national book publishing, its desing, distribution and reading issues take the main analyses in this book.